*Vergilər nazirinin 21.12.2015-ci il tarixli*
*1517040101919700 nömrəli əmrinə əlavə*

**Azərbaycan Respublikası Vergilər Nazirliyində vergi sahəsində elmi- tədqiqat mövzularının və layihələrin seçilməsi, tədqiqatların təşkili və nəticələrinin tətbiqinə dair**

**Qaydalar**

**1. Ümumi müddəalar**

1.1. “Azərbaycan Respublikası Vergilər Nazirliyində vergi sahəsində elmi-tədqiqat mövzularının və layihələrin seçilməsi, tədqiqatların təşkili və nəticələrinin tətbiqinə dair Qaydalar” (bundan sonra - Qaydalar) “Azərbaycan Respublikasının 12 iyun 2001-ci il tarixli 141-IIQ saylı Qanunu ilə təsdiq edilmiş “Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə”yə, Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 29 mart tarixli 454 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Vergilər Nazirliyi haqqında Əsasnamə”yə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 5 iyun tarixli, 90 nömrəli Qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Vergilər Nazirliyinin Tədris Mərkəzinin Əsasnamə”sinə, elm və təhsil sahəsindəki normativ-hüquqi aktların müddəalarına uyğun olaraq hazırlanmışdır.

1.2. Bu Qaydalar Vergilər Nazirliyində (bundan sonra - Nazirlik) vergilər, vergitutma və vergi inzibatçılığı sahələrində aparılan elmi-tədqiqat mövzularının və layihələrin seçilməsinin, tədqiqatların təşkilinin, qiymətləndirilməsinin və nəticələrinin tətbiqinin vahid prinsiplər əsasında aparılmasını müəyyən edir.

**2. Elmi- tədqiqat mövzusunun və layihənin seçilməsi**

2.1. Vergilər Nazirliyinin Tədris Mərkəzi (bundan sonra - Tədris Mərkəzi) hər il 1 dekabr tarixinədək Nazirliyin struktur vahidlərindən aktual mövzular və layihələr barədə müəyyən edilmiş formada məlumatları (Əlavə 1) alaraq təhlil edir, qruplaşdırır və Elmi Şuraya təqdim edir.

2.2. Tədris Mərkəzi Elmi Şurada struktur vahidləri tərəfindən verilmiş təklifləri müzakirə edərək prioritet istiqamətlər üzrə mövzuları Nazirliyin Vergi siyasəti və strateji araşdırmalar baş idarəsi ilə razılaşdırmaqla Nazirliyin rəhbərliyinə təqdim edir.

2.3. Elmi- tədqiqat mövzusunun və layihənin seçilməsində və icra müddətlərinin müəyyən edilməsində mövcud insan resursları, zəruri informasiyanın əldə olunması imkanları, mövzunun tədqiq olunma səviyyəsi, layihənin tətbiqi xüsusiyyətləri nəzərə alınır.

2.4. Elmi-tədqiqat işləri vergi sistemi və vergi orqanlarının fəaliyyətinin metodoloji bazasının təkmilləşdirilməsi istiqamətlərinə aid olmalıdır.

**3. Elmi- tədqiqatların aparılmasının təşkili və qiymətləndirilməsi**

3.1. Tədris Mərkəzi müəyyən edilmiş istiqamət üzrə mövzuların və layihələrin işlənməsinə cəlb olunması üçün müvafiq meyarları özündə əks etdirən və qalib hesab ediləcək elmi-tədqiqat işləri üçün nəzərdə tutulmuş mükafatlandırma tədbirləri barədə məlumatları (Əlavə 2) Nazirliyin struktur bölmələrinə və vahidlərinə, müvafiq dövlət orqanlarına, ali təhsil və elmi-tədqiqat müəssisələrinə, qeyri-hökumət

təşkilatlarına və sahibkarların ictimai birliklərinə, müstəqil ekspertlərə göndərir və kütləvi informasiya vasitələrində yerləşdirir.

3.2. Elmi-tədqiqat işlərinin qiymətləndirilməsi üçün vergilər nazirinin əmri ilə ən azı 5 nəfərdən ibarət Münsiflər heyəti müəyyən edilir. Münsiflər heyəti vergi və vergitutma sahəsində ixtisaslaşmış alimlər, peşəkar mütəxəssislər və vergi orqanlarında rəhbər vəzifə tutan şəxslərdən təşkil olunur.

3.3. Tədris Mərkəzi tərəfindən elmi praktik konfransın keçirilməsinə ən geci 20 gün qalmış elmi-tədqiqat işlərinin və layihələrin qiymətləndirilməsi məqsədilə Münsiflər heyətinə təqdim edilməsi təmin olunur.

3.4. Münsiflər heyətinin hər bir üzvü tərəfindən elmi- tədqiqat işləri və layihələr 5 ballıq qiymətləndirmə sistemi ilə qiymətləndirilir. Eyni miqdarda bal toplanıldığı halda Münsiflər heyətinin üzvlərinin əlavə rəyi nəzərə alınır.

3.5. Münsiflər heyəti tərəfindən vergitutma sahəsi üçün faydalılığına görə birinci yerə bir, ikinci yerə iki, üçüncü yerə üç elmi tədqiqat işi və ya layihəsi layiq görülə bilər.

3.6. Birinci, ikinci və üçüncü yerlərə layiq görülmüş, eləcə də elmi və praktiki baxımdan əhəmiyyətli hesab olunan digər elmi-tədqiqat işlərinin nəticələri və layihələr Nazirlik tərəfindən təşkil edilən elmi-praktiki konfranslarda müzakirəyə çıxarılır.

3.7. Konfransda müzakirə edilən elmi-tədqiqat işləri Tədris Mərkəzinin rəsmi internet səhifəsində və Nazirliyin elektron kitabxanasında yerləşdirilir.

## 4. Elmi-tədqiqat işlərinin nəticələrinin tətbiqi

4.1. Tədris Mərkəzi elmi-tədqiqat işlərində əldə edilmiş nəticələri ümumiləşdirir və praktiki istifadəsinə dair tövsiyyələrini Nazirliyin Vergi siyasəti və strateji araşdırmalar baş idarəsi ilə razılaşdırmaqla Nazirliyin rəhbərliyinə təqdim edir.

4.2. Məqbul hesab edilən təkliflər vergi qanunvericiliyinin və inzibatçılığının təkmilləşdirilməsi, o cümlədən vergitutma sahəsində maarifləndirmə və məlumatlandırma istiqamətlərində istifadə edilir.

## 5. Yekun müddəalar

5.1. Birinci, ikinci və üçüncü yeri tutmuş müəlliflər Nazirlik tərəfindən müəyyən edilmiş formada mükafatlandırılır.

5.2. Elmi- tədqiqat işlərinin aparılmasında iştirak vergi orqanlarının vəzifəli şəxslərinin həvəsləndirilməsi üçün əsas hesab oluna bilər.

**Əlavə 1**

# Sifariş vərəqəsi

1) İşin adı

2) Problemin qoyuluşu

3) Məqsədi

4) Qısa xülasəsi

5) Aktuallığı

6) Gözlənilən nəticələr

**Əlavə 2**

**Texniki tapşırıq**

1) İşinin adı

______________________________________________________________________________
______________________________________________________________________________

2) İcra müddəti

______________________________________________________________________________
______________________________________________________________________________

3) Tətbiq istiqamətləri

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

4) Məqsədi

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

5) Qısa xülasəsi

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

6) Aktuallığı

______________________________________________________________________________
______________________________________________________________________________
______________________________________________________________________________

7) Nəticələri və tətbiqi imkanları

______________________________________________________________________________
______________________________________________________________________________